Azərbaycan.- 2022.- 5 aprel. S. 4.

# Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Gürcüstanda səfərdədir

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev aprelin 4-də Tbilisidəki Heydər Əliyev parkında Ümummilli Liderin abidəsini ziyarət edib.

Nazir Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib.

Sonra nazir Rəşad Nəbiyev Gürcüstanın Qəhrəmanlar Meydanını ziyarət edib, bu ölkənin azadlığı və suverenliyi uğrunda canlarından keçən insanların xatirəsini ehtiramla anıb.

Ziyarətlər zamanı nazir Rəşad Nəbiyevi Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***

Tbilisidə səfərdə olan Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Gürcüstan hökumət administrasiyasından bildirilib ki, görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdiyi vurğulanıb.

Həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu, Qara dəniz-Xəzər nəqliyyat marşrutu, Fars körfəzi-Qara dəniz dəhlizi və "yaşıl limanlar" istiqamətlərində uğurlu əməkdaşlıq münasibətlərinin olduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, Gürcüstan ilə Azərbaycan arasında koordinasiya edilmiş əməkdaşlıq Avropa-Asiya nəqliyyat dəhlizinə yüklərin cəlb olunması prosesinə şərait yaradır və bu da son nəticədə hər iki ölkənin iqtisadiyyatına müsbət təsir göstərir.

Görüşdə regionun inkişafı və uzunmüddətli tərəqqisi üçün sülh və sabitliyin vacibliyi xüsusi qeyd olunub.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

***

Tbilisidə səfərdə olan Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüb.

Görüşdə iki ölkə arasında iqtisadi, siyasi, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişaf perspektivləri diqqət mərkəzində olub.

Görüşdə ikitərəfli əməkdaşlığımızın qarşılıqlı inkişaf etdiyi avtomobil nəqliyyatı, dəniz nəqliyyatı, aviasiya və İKT sahələrinə dair müzakirələr aparılıb.







Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti vasitəsilə yükdaşımaların təşkili və mövcud çətinliklərin həlli yolları haqqında fikir mübadiləsi aparılıb.

Bildirilib ki, beynəlxalq daşımaların həyata keçirilməsi işində ölkələrimizin tranzit potensialından istifadə edilməsində çoxtərəfli əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq TRACECA və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu platformalarında həyata keçirilir.

Görüşdə Azərbaycanın beynəlxalq çərçivədə tərəfdaşlarla tam və qarşılıqlı faydalı əlaqələr qurmaq üçün ölkənin nəqliyyat kompleksinin mövcud potensialını maksimum artırmağa çalışdığı diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev də iştirak edib.

**AZƏRTAC**